# Uca Allah belə demişdir: Kim mənim bir vəlimə (dostuma, yaxın quluma) düşmənçilik edərsə, mən ona müharibə elan edərəm. Qulum Mənə, ona fərz etdiyim ibadətlərdən daha sevimli başqa bir şeylə yaxınlaşa bilməz

Əbu Hureyra (Allah ondan razı olsun) rəvayət edir ki, Rəsulullah (sallallahu aleyhi va səlləm) belə buyurmuşdur: "Uca Allah belə demişdir: Kim mənim bir vəlimə (dostuma, yaxın quluma) düşmənçilik edərsə, mən ona müharibə elan edərəm. Qulum Mənə, ona fərz etdiyim ibadətlərdən daha sevimli başqa bir şeylə yaxınlaşa bilməz. Qulum mənə nafilə ibadətlərlə o qədər yaxınlaşar ki, Mən onu sevərəm. Mən onu sevdikdə, onun eşidən qulağı, görən gözü, tutan əli və yeriyən ayağı olaram. Məndən bir şey istəsə, ona verərəm, Mənə sığınsa, onu qoruyaram".

[Səhih] [Əl-Buxari rəvayət etdi]

Peyğəmbər (sallallahu aleyhi va səlləm) bu qüdsi hədisdə xəbər verir ki, İzzət və Cəlal sahibi Uca Allah belə demişdir: "Kim Mənim dostlarımdan (övliyalarımdan) birinə əziyyət verər, onu qəzəbləndirər və ona qarşı nifrət bəsləyərsə, Mən ona qarşı müharibə elan etmiş olaram (ona düşmən olduğumu bildirərəm)". Vəli (Allahın dostu): imanlı və təqvalı möminlir. Qulun Allah dostluğundan nəsibi onun imanı və təqvası qədərində olar. Bir müsəlman, Rəbbinə Ona fərz və vacib buyurduğu itaətləri yerinə yetirməkdən və haramları tərk etməkdən daha sevimli başqa bir şeylə yaxınlaşa bilməz. Müsəlman fərzlərlə birlikdə nafilə ibadətləri edərək Allaha o qədər yaxınlaşar ki, nəhayət Allahın məhəbbətinə nail olar. Əgər Allah onu sevərsə, onun bu dörd əzasını doğru yola yönəldər: Allah onun eşitməsini doğruya yönəldər və beləliklə yalnız Allahı razı salan şeyləri eşidər. Allah onun gözünü doğruya yönəldər və beləliklə yalnız Allahın sevdiyi və razı qaldığı şeylərə baxar. Allah onun əlini doğruya yönəldər və beləliklə əli ilə yalnız Allahı razı salan işlər görər. Allah onun ayağını doğruya yönəldər və beləliklə yalnız Allahın razı qaldığı yerə gedər və yalnız xeyir olan yerə getməyə səy göstərər. Bununla belə, əgər o, Allahdan bir şey istəyərsə, Allah ona istədiyini verər, duasına cavab verilən kəs olar. Əgər qorunmaq üçün Allaha sığınıb, ona yönələrsə, Pak olan Allah onu qorxduğu şeydən qoruyar və himayə edər.

النجاة الخيرية
ALNAJAT CHARITY

لجنة الدعوة الإلكترونية
EDC
E-Da'wah Committee